# Vətənə və elmə xidmətə həsr olunan böyük ömür yolu

***Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin elmə, mədəniyyətə, incəsənətə olan böyük qayğısı ölkəmizdə ziyalıların layiqli mövqeyini müəyyən edən həlledici amil olmuşdur. Ulu Öndərin həmişəyaşar ideyalarının layiqli davamçısı, ölkə başçısı İlham Əliyevin elm və sənət adamlarına himayəsi ziyalı sözünün əhəmiyyətini və çəkisini artırır. İqtisadiyyat kimi taleyüklü sahədə elmi araşdırmaların obyektivliyi, dərinliyi və hərtərəfli olması məsələləri də bu baxımdan diqqət mərkəzindədir.***

İqtisadiyyat məhdud resurslardan daha çox fayda əldə etməyin yollarını araşdıran elm sahəsidir. İqtisadi tədqiqatlar vəziyyətin yüksək tezliklə dəyişməsi və gözlənilməz amillərlə üzləşməsi səbəbindən daim mürəkkəbləşir. Real iqtisadiyyatın gələcəyini görmək daha çətindir. Odur ki, iqtisadi öngörmələri ilə tanınan alimlərin xidməti yüksək qiymətləndirilir. Cəmiyyətin tərəqqisinin təməli hesab edilən iqtisadi inkişafın prioritetlərini müəyyən etmək böyük və davamlı əmək və zəhmət tələb edir.

Müasir Azərbyacanın memarı olan Ulu Öndər Heydər Əliyev hələ SSRİ dövründə, ötən əsrin 70- ci illərində respublika iqtisadiyyatının inkişafı üçün misilsiz işlər görmüş, Azərbaycanı keçmiş İttifaq miqyasında sosial-iqtisadi inkişaf səviyyəsinə görə ön sıraya çıxarmışdır. Azərbaycanın müstəqillyinin ilk illərində, keşməkeşli dövrdə Ümummili Liderin dillər əzbəri olan "Azərbaycan dünyaya günəş kimi doğacaq" kimi tarixi qabaqlayan ifadəsi iqtisadçılar üçün xüsusi nikbinlik və fəallıq mənbəyi olmuşdur.

Azərbaycanın öz müstəqilliyini bərpa etdiyi vaxtdan indiyə qədər milli iqtisadiyyatın keçdiyi yol keşməkeşli və ziddiyyətli olmuşdur. Ölkənin sosial-iqtisadi inkişafında keçmiş ittifaq tərkibində yaradılmış potensialın, müasir tələblər baxımından qiymətləndirilməsinə böyük ehtiyac vardır. Müvafiq araşdırmalar, xüsusilə kompleks surətdə aparılmamışdır. Bunu ilk dəfə akademik Ziyad Səmədzadə həyata keçirmişdir.

***Azərbaycanın görkəmli iqtisadçı alimi, iqtisad elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü, millət vəkili Ziyad Səmədzadənin 85 yaşı tamam olur. Ziyad Əliabbas oğlu Səmədzadə 1940-cı ilin iyun ayının 25-də Bakı şəhərinin Buzovna kəndində anadan olmuşdur. 1961-ci ildə Azərbaycan Dövlət Universitetinin iqtisad fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.*** 1962-1965-ci illərdə SSRİ Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun aspiranturasında təhsil almış və həmin institutda namizədlik dissertasiyası müdafiə etmişdir. O, 1971-ci ildə 31 yaşında dissertasiya müdafiə edərək iqtisad elmləri doktoru alimlik dərəcəsi almış, 1977-ci ildə ona professor elmi adı verilmişdir. Ziyad Səmədzadə 1976-1978-ci illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsi Elmi Tədqiqat İqtisadiyyat İnstitutunun direktorunun birinci müavini olmuş, 1978-1982-ci illərdə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun elmi işlər üzrə prorektoru vəzifəsində çalışmışdır. Yorulmaz tədqiqatçının əsərləri respublikada və keçmiş ittifaq miqyasında tanınmış, elmi yaradıcılıq və elmi təşkilatçılıq uğurları sayəsində 1980-ci ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, 1989-cu ildə isə Akademiyanın həqiqi üzvü seçilmişdir. Ziyad Səmədzadə bir sıra beynəlxalq Akademiyaların üzvü kimi Azərbaycan elmini layiqincə təmsil edir.

Ziyad Səmədzadə böyük idarərəçilik təcrübəsi keçmiş,1983-1993-cü illərdə Azərbaycan KP Mərkəzi Komitəsi iqtisadiyyat şöbəsinin müdiri, Azərbaycan Respublikası Ali Sovetinin sədrinin birinci müavini, Baş nazirin birinci müavini, Dövlət Plan-İqtisad Komitəsinin sədri, TASİS və TRASEKA proqramları üzrə Azərbaycanın Milli Koordinatoru olmuşdur.



***Azərbyacanın iqtisadiyyatının dinamik, dayanıqlı və tarazlı regional inkişafı perspektivləri Ziyad Səmədzadəni daim düşündürmüş, dağ rayonlarının problemlərinin kompleks elmi təhlil edilməsi təşəbbüsünü irəli sürmüş və həmin işlərə elmi rəhbərlik etmişdir. Azərbaycan Respublikası Ali Sovetinin sədrinin birinci müavini vəzifəsində işləyərkən, parlamentin onun sədrliyi ilə 1991-ci il oktyabrın 18-də keçirilən sessiyasında müstəqillik haqqında Konstitusiya aktı qəbul edilmişdir. 26 noyabr 1991-ci ildə təşkil edilən Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının tərkibinə daxil edilmişdir.***

Azərbaycanın cəlb olunduğu elan edilməmiş müharibə, Qarabağın erməni silahlı qüvvələri tərəfindən işğalı, 1 milyondan artıq azərbaycanlının öz doğma yudlarından qaçqın və köçkün olması, milli sərvətlərimizin işğalçılar tərəfindən talanması ölkəmizin tanınmış iqtisadçı alimini daim narahat etmişdir. Ziyad Səmədzadənin bu mövzuda dərin və davamlı araşdırmaları Azərbaycan və rus dillərində nəşr edilmiş "Dağlıq Qarabağ: naməlum həqiqətlər" adlı kitaba daxil edilmişdir. Z.Səmədzadə 1992-ci ildən Azərbaycan İqtisadçılar İttifaqının sədri, Beynəlxalq İqtisadçılar İttifaqının vitse-prezidentidir.1999-cu ildə "İqtisadiyyat" adlı qəzet təsis etmişdir və onun müntəzəm nəşrini davam etdirir. Akademik Ziyad Səmədzadənin baş elmi redaktəsi ilə "Azərbaycan XXI əsrin astanasında" üççildliyi nəşr edilmişdir.

Zəngin təbii resurslara malik olması tarixən Azərbaycan iqtisadiyyatının inkişafının mühüm amili olmuşdur. Ziyad Səmədzadənin əsərlərində tarixilik və müasirlik üzvi və səmərəli vəhdət təşkil edir. Neft amilinə münasibətdə bu özünü daha əyani surətdə göstərir. Alim XIX-XX əsrlərin qovşağından başlayaraq, günümüzə qədərki dövrdə iqtisadiyyatda karbohidrogen amilinin rolunu geniş rakursda və konkret faktlar əsasında hərtərəfli araşdırmışdır. Beynəlxalq müstəvidə aparılan tədqiqatlar neft-qaz amilinin iqtisadiyyata və ümumilikdə ictimai həyata ziddiyyətli təsirlərini aşkar etməyə imkan vermişdir. Akademik əsaslandırılmış faktlarla göstərir ki, Azərbaycan Respublikası neft-qaz amilinə, karbohidrogen ehtiyatlarının iqtisadi dövriyyəyə daxil edilməsi məsələsinə münasibətdə şəffaflığı və səmərəliliyi ilə fərqlənən özünəməxsus yol seçmişdir. Ölkəmiz neft-qaz amilindən milli müstəqilliyi təmin etmək, sosial-iqtisadi inkişafı dəstəkləmək, milli iqtisadi təhlükəsizliyin güclü bazasını formalaşdırmaq məqsədi ilə uğurla istifadə etmişdir.

Dünyanın yeni nizamının qurulduğu hazırki ziddiyyətli dövrdə ölkələrin iqtisadi təhlükəsizliyi problemləri gündəlikdədir. Yeri gəlmişkən qeyd edək ki, Ziyad Səmədzadə artıq 30 ildən çoxdur ki, milli iqtisadi inkişaf modelində iqtisadi təhlükəsizlik meyarlarının nəzərə alınmasının zəruriliyini önə çəkir. Görkəmli iqtisadçı alim haqlı olaraq hesab edir ki, qoballaşma proseslərinin intensivləşməsi və beynəlxalq inteqrasiya əlaqələrinin dərinləşməsi şəraitində milli dövlətçilik mənafelərinin, milli iqtisadi təhlükəsizliyinin təmin edilməsi həyati əhəmiyyət kəsb edir.

Azərbaycanda əmək məhsuldarlığı, iqtisadi inkişafın dinamikası və proporsiyaları, milli gəlirin yaranması və bölgüsü problemləri üzrə elmi məktəb bilavasitə akademik Ziyad Səmədzadənin xidməti sayılmalıdır. Ümumilikdə o, milli və dünya iqtisadiyyatının aktual problemlərinə dair 600-dən çox əsərin, o cümlədən çoxsaylı monoqrafiya və çoxcildliklərin müəllifidir.

Postsovet məkanı ölkələrində Çin Xalq Respublikası kimi maraqlı iqtisadi tarixə malik, böyük ölkəni tədqiq edərək fundamental elmi əsər yazmış ilk iqtisadçı alim kimi Ziyad Səmədzanənin "Dünya iqtisadiyyatı: Çin iqtisadi möcüzəsi" kitabı nəinki Azərbaycanda, həmçinin beynəlxalq miqyasda diqqətəlayiq hadisə sayılır. İki ölkə arasında elmi əlaqələrdə mühüm rol oynamış həmin əsər, gənc araşdırmaçılar üçün qiymətli mənbə rolunu oynayır.

Ümummilli Lider Heydər Əliyev dəfələrlə XX əsrdə və müstəqillik illərində Azərbaycanın inkişaf, o cümlədən sosial-iqtisadi tarixinin yazılmasının vacib olduğunu göstərmişdir. Bu müddəanın həyata keçirilməsinin vacibliyi Ziyad Səmədzadəni daim məşğul etmiş, onu davamlı və sistemli araşdırmalar aparmağa sövq etmişdir. Akademik 2004-cü ildə "Böyük yolun mərhələləri" - "Azərbaycan iqtisadiyyatı yarım əsrdə: reallıq və perspektivlər adlı kitabı ilə Azərbaycanın iqtisad elminə böyük bir tarixi dövrü əhatə edən dərin və obyektiv məzmunlu möhtəşəm əsər bəxş etmişdir.

***Azərbaycanın ali qanunverici orqanında göstərdiyi fəaliyyət məzmunu və əhatə dairəsi ilə diqqəti cəlb edir. Akademik Ziyad Səmədzadə Milli Məclisin komitə sədri və millət vəkili kimi ölkənin iqtisadi inkişaf strategiyasının reallaşması, iqtisadi qanunvericilik bazasının möhkəmləndirilməsi, büdcə sisteminin təkmilləşdirilməsi məsələlərinin həllində yaxından və fəal iştirak etmişdir. Millət vəkili kimi məhsuldar fəaliyyətini davam etdirən Ziyad Səmədzadə 2024-cü il oktyabrın 8-də Azərbaycan-Belarus parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri seçilmişdir.***

Son onilliklərdə görkəmli alim böyük həcmli fundamental əsərləri ilə elmi ictimaiyyəti və geniş oxucu kütləsini sevindirməkdə davam edir. Onun "Azərbaycan iqtisadiyyatı 100 ildə" beşcildliyi dövlət və ictimai xadimlər, elm adamları tərəfindən milli iqtisad elmi üçün dəyərli və fundamental mənbə hesab edilir. Haqlı olaraq iqtisad elmimiz üçün yeni və möhtəşəm uğur sayılan bu böyük həcmli əsər alimin uzun illər yorulmadan apardığı elmi-iqtisadi araşdırmalarının və yaradıcılığının mühüm nəticəsidir. "Azərbaycan iqtisadiyyatı 100 ildə" beşcildliyində Azərbaycan iqtisadiyyatının son bir əsrdə keçdiyi yol elmi cəhətdən geniş və hərtərəfli araşdırılır.Müəllif tamamilə haqlı olaraq hesab edir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının dövlətimizin iqtisadi təhlükəsizliyi, milli maraqlarının qorunması, iqtisadiyyatın strukturunun şaxələndirilməsi, tarazlı regional inkişafın, ərzaq təhlükəsizliyinin, iqtisadi inkişafla demoqrafik inkişaf arasında qarşılıqlı əlaqə və asılılığın təmin edilməsi barədə taleyüklü əhəmiyyət kəsb edən baxışları, tövsiyələri çoxcildlik üçün ən əsas metodoloji baza olmuşdur.

***Beşcildlikdə 100 ilin iqtisadi reallıqları tədqiq olunmuş, 1000-dən artıq mənbəyə istinad edilmiş, mühüm elmi və təcrübi əhəmiyyətli müddəalar əsaslandırılmışdır. İqtisadi tariximizə işıq salan zəngin arxiv materialları üzərində illərlə aparılan araşdırmalar əsasında hazırlanan, yüzlərlə cədvəl və qrafiklərlə əyaniliyin yüksək səviyyəsinin təmin edildiyi fundamental əsərin gələcək araşdırmaçılar üçün etibarlı və zəngin baza rolu oynayacağına əminik.***

Akademikin qloballaşma və kəskin rəqabət şəraitində milli iqtisadiyyatın inkişaf prioritetləri və perspektivlərinə münasibətdə fəal vətəndaş mövqeyi özünü bariz şəkildə göstərir. O hesab edir ki, ölkəmizdə milli iqtisadi təhlükəsizlik istiqamətində atılan addımlar kompleks xarakterli və nəticəyönümlüdür. Belə ki, Azərbaycanda tarixən qısa bir müddətdə yoxsulluğun səviyyəsinin dəfələrlə aşağı salınması, yeni iş yerlərinin yaradılması, regionların sürətli və tarazlı inkişafı üzrə proqramların icrası öz bəhrəsini gözlətməmişdir.

Ziyad Səmədzadənin vətən və xalq qarşısında xidmətləri yüksək qiymətləndirilmişdir. O elm və texnika sahəsində Azərbaycan SSR Lenin Komsomolu mükafatı (1974), "Qırmızı əmək bayrağı" ordeni (1986), Belarus Respublikasının Prezidentinin Sərəncamı ilə Fransisk Skorina medalı (2010), Beynəlxalq İqtisadçılar İttifaqının "Qızıl qələm" mükafatı (2010), Beynəlxalq İqtisadçılar İttifaqının Gümüş medalı (2015), AMEA-nın Fəxri fərmanları, ARDNŞ-nin Fəxri fərmanı (2013), "Humay" mükafatı (2013) ilə təltif olunmuşdur. Görkəmli alim Azərbaycan Respublikasının ən yüksək mükafatları olan "Şöhrət" ordeninə (2010), "Şərəf" ordeninə (2015), 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeninə (2020) layiq görülmüşdür.

Ziyad Səmədzadənin alim və vətəndaş mövqeyindən yaradıcılığının daha böyük enerji ilə davam edəcəyinə əminlik hissi ilə yazımızı bitirmək istəyirik. Şübhə etmirik ki, Azərbaycanın iqtisad elminin korifeyi akademik Ziyad Səmədzadə tükənməz enerjisi ilə müasir sivilizasiyanın aktual problemlərinin araşdırılmasına, Azərbaycan dövlətinin, onun iqtisadi qüdrətinin möhkəmləndirilməsinə yeni-yeni töhfələr verəcəkdir.

**Vahid Novruzov,**
**iqtisad elmləri doktoru, professor**

**Rəsul Balayev,**
**iqtisad elmləri doktoru, professor**